**2000-ci ilin dövlət büdcəsinin "Fermer təsərrüfatlarına kredit güzəştləri fondu" maddəsində nəzərdə tutulan vəsaitin bölüşdürülməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 2000-ci ilin dövlət büdcəsinin "Fermer təsərrüfatlarına kredit güzəştləri fondu" maddəsində nəzərdə tutulmuş vəsaitdən fermerlərin investisiya layihəsinə kredit təşkilatlarından aldıqları kreditə görə hesablanmış faizin qismən ödənilməsinə kömək göstərilməsi barədə Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinin təklifi qəbul edilsin və kredit faizinin ödənilməsinə kömək göstəriləcək kənd təsərrüfatı müəssisələrinin Siyahısı təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu qərarla təsdiq edilmiş vəsaitin ayrılmasını təmin etsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 2 noyabr 2000-ci il
201

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 2 noyabr tarixli 201 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Kredit faizinin ödənilməsinə kömək göstəriləcək kənd təsərrüfatı müəssisələrinin SİYAHISI**

| Sıra N-si | Müəssisənin adı | Hüquqi ünvanı | Layihənin istiqaməti | Kredit faizinin ödənilməsinə kömək (mln. manatla) |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | "Tovuz" kooperativi | Abşeron rayonu, Xırdalan qəsəbəsi | heyvandarlıq | 16,0 |
| 2. | "Qonaqkənd" kəndli fermer təsərrüfatı | Şamaxı rayonu, Qonaqkənd kəndi | heyvandarlıq, taxılçılıq | 13,7 |
| 3. | "Asif-Vasif" kəndli fermer təsərrüfatı | Xızı rayonu, Yeni Yaşma kəndi | heyvandarlıq | 5,87 |
| 4. | "Tərəqqi" kooperativi | Kürdəmir rayonu, Pirilli kəndi | heyvandarlıq | 4,3 |
| 5. | "Məhsul-96" kəndli fermer təsərrüfatı | Şamaxı rayonu, Dzerjinovka kəndi | heyvandarlıq | 2,3 |
| 6. | "Hazırəhməd-li" kəndli fermer təsərrüfatı | Goranboy rayonu, Hazırəhmədli kəndli | taxılçılıq | 1,9 |
| 7. | "Küdrü" kəndli fermer təsərrüfatı | Şamaxı rayonu, Dağ Bağırlı kəndi | heyvandarlıq | 14,3 |
| 8. | "El-gücü" kəndli fermer təsərrüfatı | Saatlı rayonu, Genişkənd kəndi | taxılçılıq | 7,4 |
| **Cəmi:** | | | | **65,77** |

Azərbaycan Respublikasının Qanunvericilik toplusu .- 2000.- 30 noyabr, № 11.-